AZƏRBAYCAN RESPUBLİKASININ
QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINA
DÖVLƏT DƏSTƏYİ AGENTLİYİ

MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

# MƏDƏNİ İRS BEYNƏLXALQ USTAD MƏKTƏBİ

## TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz XƏLİLLİ

BAKI - 2025

Kitabın məzmunu “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə hazırlanmışdır.

Xəlilli, Fariz. (Hazırlayan). (2025). Mədəni İrs Beynəlxalq Ustad Məktəbi: Tədris vəsaiti. Bakı: AFPoliqrAF.

16-25 iyul 2025-ci il tarixlərində “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi ilk dərslərinə başlamışdır. Dərslər müxtəlif mədəni irs mövzularında olub, Azərbaycan, Türkiyə, İtaliya irs mütəxəssisləri tərəfindən aparılmışdır. Təlimçilərin mühazirələri tədris vəsaiti şəklində nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Qafar Cəbiyev
Rəyçilər: Prof.Dr. Kübra Əliyeva
Prof.Dr. Şikar Qasımov

Tərcümə: Fariz Xəlilli
Dizayn: İntiqam Məhəmmədli
Koordinator: Məleykə Hüseynova
Fotolar: Nicat Nağızadə, Fariz Xəlilli, Elmira Abbasova, Fidan Xəlilli, Fərid Xəlilli

ISBN: 978-9952-8561-2-5

© “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2025

# MÜNDƏRİCAT


Prof.Dr. Qafar Cəbiyev - MƏDƏNİ İRS USTAD MƏKTƏBİ KURSUNA GİRİŞ VƏ YA MƏDƏNİ İRSİN TƏDQİQİ, QORUNMASI VƏ TƏŞVİQİ İSTİQAMƏTİNDƏ PRİORİTETLƏR: ƏNƏNƏVİ YANAŞMALAR VƏ YENİ ÇAĞIRIŞLAR ........ 6
https://doi.org/10.30546/978-9952.2025.1006

Prof.Dr. Luici Skrinzi - ZƏRGƏRPALAN HAMAMI: BEYNƏLXALQ TƏDQİQAT VƏ KONSERVASİYA MİSSİYASI........ 18
https://doi.org/10.30546/978-9952.2025.1018

Dr. Fariz Xəlilli - MƏDƏNİ İRS ABİDƏLƏRİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR ........ 25
https://doi.org/10.30546/978-9952.2025.1025

Məleykə Hüseynova - MƏDƏNİ İRSİN QORUNMASI SAHƏSİNDƏ MİLLİ VƏ BEYNƏLXALQ TƏNZİMETMƏ ........ 43
https://doi.org/10.30546/978-9952.2025.1043

Dos.Dr. Günel Seyidəhmədli - AZƏRBAYCANIN TARİX-MƏDƏNİYYƏT QORUQLARI........ 65
https://doi.org/10.30546/978-9952.2025.1065

Prof.Dr. Şikar Qasımov - AZƏRBAYCANIN QEYRİ-MADDİ MƏDƏNİ İRSİ VƏ ONUN YUNESKO-DAKI YERİ........ 87
https://doi.org/10.30546/978-9952.2025.1087

Dos.Dr. Pərvin Ahənçi - TARİXİ-MƏDƏNİ İRSİN RƏQƏMSALLAŞDIRILMASI ........ 103
https://doi.org/10.30546/978-9952.2025.1103

Dos.Dr. Həbibə Əliyeva - MƏDƏNİ İRS ABİDƏLƏRİ ÜZƏRİNDƏKİ EPİQRAFİK TƏDQİQATLAR ........ 129
https://doi.org/10.30546/978-9952.2025.1129

Dr. Şəhla Xəlilli - DÜNYA YADDAŞI: ƏLYAZMA İRSİ ........ 142
https://doi.org/10.30546/978-9952.2025.1142

Dr. Nəzmin Cəfərova - MUZEYLƏR MƏDƏNİ İRSİN KEŞİYİNDƏ........ 154
https://doi.org/10.30546/978-9952.2025.1154

Gülşən Hüseynova - FÖVQƏLADƏ HALLAR ZAMANI MƏDƏNİ İRSİN MÜHAFİZƏSİ........ 185
https://doi.org/10.30546/978-9952.2025.1185

Arzu Həsənli - MƏDƏNİ İRSİN SOSİALLAŞMASI VƏ ONUN CƏMİYYƏT ÜÇÜN ƏHƏMİYYƏTİ........ 205
https://doi.org/10.30546/978-9952.2025.1205

Aidə Məlikova - MƏDƏNİ İRS TURİZMİ ........ 211
https://doi.org/10.30546/978-9952.2025.1211

Prof.Dr. Zahidə Məmmədova, Dos.Dr. Məhəmməd Nurməmmədov - MEMARLIQ ABİDƏLƏRİNİN BƏRPASI VƏ KONSERVASİYASI........ 224
https://doi.org/10.30546/978-9952.2025.1224

Cəlaləddin Küçük, Nadirə Minə Yar - BƏRPA VƏ KONSERVASİYADA MATERİALLAR........ 246
https://doi.org/10.30546/978-9952.2025.1246

Əfqan Quliyev - BƏRPA LAYİHƏLƏRİNİN HAZIRLANMASI VƏ UĞURLU TƏCRÜBƏLƏR........ 259
https://doi.org/10.30546/978-9952.2025.1259

Prof.Dr. Qafar Cəbiyev, Dr. Fariz Xəlilli, Dr. Elmira Abbasova - Bakı şəhəri Yasamal rayonu Həmidağa Hüseynzadə küçəsində yerləşən Hamam binası daxilində və ətrafında konservasiya və təmizləmə işləri çərçivəsində aparılan arxeoloji tədqiqatların HESABATI ........ 263
https://doi.org/10.30546/978-9952.2025.1248

# BƏRPA LAYİHƏLƏRİNİN HAZIRLANMASI VƏ UĞURLU TƏCRÜBƏLƏR

Əfqan Quliyev
Layihə koordinatoru
GENTECHS MMC
https://doi.org/10.30546/978-9952.2025.1259

**Giriş.** "Gentechs" MMC olaraq 2024-cü ilin sentyabr ayında Bakı şəhəri, Yasamal rayonu, Zərgərpalan küçəsində (indiki Həmidağa Hüseynzadə küçəsi 11) yerləşən Zərgərpalan hamamının layihələndirilməsi ilə bağlı texniki tapşırıq tərəfimizə təqdim edilmişdir. Sözügedən tapşırıq "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi tərəfindən irəli sürülmüş və müvafiq layihələndirmə işlərinin icrasına başlanılmışdır.

Qısa müddət ərzində əraziyə yerində baxış keçirilmiş, ilkin ölçü və sənədləşdirmə işləri aparılmış, habelə binanın mövcud vəziyyətini qiymətləndirmək məqsədilə sahədə vizual müşahidələr həyata keçirilmişdir.

**İlkin araşdırmalar.** Aparılan ilkin texniki baxış nəticəsində müəyyən edilmişdir ki, bina bir sıra mühüm konstruktiv və funksional cəhətdən tamamilə yararsız vəziyyətdədir. Belə ki:

- Binanın çöl divarları və dam örtüyü ciddi şəkildə dağılmışdır;
- Tavan örtüyünün izolyasiya sistemi tamamilə sıradan çıxmışdır;
- Üst konstruksiyalarda bitki və ağacların bitməsi müşahidə edilmişdir;
- Daxili məkanlar tullantılarla dolmuş və ciddi şəkildə dağıdılmışdır;

Ümumilikdə tikili istismar üçün yararsız vəziyyətdə qiymətləndirilmişdir.

Bu vəziyyət binanın konservasiya və bərpa imkanlarının dəyərləndirilməsi baxımından ilkin müdaxilə zərurətini ortaya qoymuşdur.




Mütəxəssislərimiz tərəfindən dəqiq ölçü işləri aparıldıqdan sonra abidənin ölçü planları hazırlanmışdır. Daha sonra bu planlar Memarlıq və İnşaat Universitetinin tələbələrinin iştirakı ilə dəqiqləşdirilmiş və yekunlaşdırılmışdır. Sözügedən prosesdə iştirak edən bütün şəxslərin əməyi

təqdirəlayiqdir. Xüsusilə də bu işlərin həyata keçirilməsində göstərdiyi əhəmiyyətli dəstəyə görə Məhəmməd Nurməmmədovun xidmətləri qeyd olunmalıdır.

**Razılaşdırma mərhələsi.** Ölçü layihəsinin tamamlanmasından sonra “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin nümayəndələri, Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin mütəxəssisləri, eləcə də layihədə iştirak edən memarlarımız və digər əlaqədar tərəflərin iştirakı ilə bir sıra işgüzar görüşlər keçirilmişdir. Görüşlər zamanı abidənin mövcud vəziyyəti nəzərdən keçirilmiş, eləcə də gələcəkdə binada həyata keçirilə biləcək sağlamlaşdırma və konservasiya tədbirləri ətraflı şəkildə müzakirə olunmuşdur.




Müzakirələr nəticəsində bir neçə alternativ təklif irəli sürülmüş və razılaşdırılmış tədbirlər əsasında hamam binasında əsas sağlamlaşdırma və ilkin müdaxilə işləri icra edilmişdir. Hal-hazırda müşahidə olunan vəziyyət bu mərhələdə həyata keçirilmiş işlərin nəticəsidir. Görülmüş bütün işlər layihənin texniki sənədlərində və müvafiq hesabatlarda tam şəkildə sənədləşdirilmişdir.

Layihə tamamlandıqdan sonra müvafiq qaydada Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinə təqdim edilmişdir. Dövlət Xidməti tərəfindən layihəyə baxış keçirilmiş, müəyyən irad və tövsiyələr bildirilmişdir. Qaldırılan iradlar tərəfimizdən operativ şəkildə aradan qaldırılmış və layihə sənədləri yenidən təqdim olunmuşdur. Ümumilikdə, təqribən üç ay davam edən prosedur çərçivəsində layihə rəsmi şəkildə razılaşdırılmışdır.




Layihənin növbəti mərhələsində sənədlər Azərbaycan Milli Elmlər Akademiyasına təqdim olunmuş və müvafiq qurum tərəfindən layihəyə müsbət rəy verilmişdir. Ardınca layihə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə təqdim edilmişdir. Komitənin mütəxəssisləri tərəfindən əraziyə yerində baxış keçirilmiş və aparılmış ilkin bərpa, təmir və sağlamlaşdırma işləri fonunda layihənin icrası paralel şəkildə davam etdirilmişdir.




**Görülən əsas işlər:**

**-** Binanın üst konstruksiyasında yaranmış bitki və ağac örtüyü tam şəkildə təmizlənmişdir;

- Mövcud dam örtüyünün köhnə izolyasiya qatları demontaj edilərək, onların yerinə müasir tələblərə cavab verən yeni izolyasiya materialları tətbiq olunmuşdur;

- Günbəzlərin üzərində toplanmış beton qatlar konstruktiv ağırlıq yaratdığı və əhəngdaşına zərər verdiyi üçün aradan qaldırılmışdır;

**-** Günbəzlərin səthi xüsusi möhkəmləndirici məhlullarla bərkidilmiş və suya davamlı materiallarla örtülərək hidroizolyasiya təmin olunmuşdur.

**Dam örtüyü və günbəzlərin quruluşu barədə müşahidələr.** Layihə çərçivəsində dam örtüyü və günbəzlər xüsusi diqqətlə araşdırılmış və məlum olmuşdur ki, onlar çox maraqlı konstruktiv həll yolu ilə icra olunmuşdur. Müşahidələr göstərmişdir ki, bu quruluş çox böyük ağırlıq yükünü daşıyır – binanın üzərində kifayət qədər ciddi bir yük mövcuddur.

Ölçmələr təsdiqləmişdir ki, binanın ön hissəsində dam örtüyü üzərindəki torpaq qatının qalınlığı təxminən 70 sm, arxa hissəsində isə 1 metr 40 sm - 1 metr 50 sm arasında dəyişir. Bu qədər qalın torpaq qatının mövcudluğu həm konstruktiv yük, həm də tarixi struktur baxımından mühüm detal hesab olunur. Günbəzlər bu ağırlığı uzun illər ərzində daşımaq qabiliyyətində olmuş və bu fakt memarlıq baxımından əlamətdar nüanslardan biri kimi qiymətləndirilə bilər.

**Tikinti texnologiyası və daş konstruksiyalar.** Müasir tikintidə daş karkaslı binalar adətən dəmir-beton və ya taxta/metal kəmərlərlə möhkəmləndirilir. Köhnə məskənlərdə (Başqal, Lahıc və s.) də bu üsula rast gəlinir. Lakin Zərgərpalan hamamında ənənəvi kəmər sistemi tətbiq edilməmiş, onun əvəzinə uzun daş elementlərindən istifadə olunmuşdur.

Müşahidə olunan daşların ölçüləri: 50×19×19 sm; 80×19×19 sm; 100×19×19 sm.

Bu yanaşma qeyri-standart olsa da, binanın möhkəmliyinə müsbət təsir göstərmişdir. Bu isə Azərbaycan memarlığında maraqlı konstruktiv həllərdən biri kimi qeyd edilə bilər.

**Su və istilik sistemləri.** Ən diqqətəlayiq texniki həllərdən biri hamamın su və istilik sistemləridir:

- Su sistemi – "birləşmiş qablar prinsipi". Son otaqdakı vannalarla mərkəzi ambar arasındakı su səviyyəsi eyni saxlanılırdı. Bu, fizikanın sadə prinsipləri ilə işləyən, insan müdaxiləsinin minimum olduğu ağıllı texniki sistemdir.
- İstilik sistemi – "samovar prinsipi". Çöldə yerləşən külxanadan gələn isti hava kanallar vasitəsilə döşəmənin altından keçərək binanı isidir və suları qızdırır. Bu, qədim dövr

üçün olduqca iqtisadi və mühəndislik baxımından yüksək səviyyəli həll hesab olunur.

- Saxsı qabların yerləşdirilməsi. Çimmə bölməsində daş sütunların üst hissəsində arka kəmərlərlə birləşən sahədə saxsı qabların yerləşdirildiyi müəyyən edilmişdir. Bununla bağlı iki əsas ehtimal irəli sürülür:

    a) Akustik funksiya - səsin yayılmasını tənzimləmək və musiqi, ictimai tədbirlər zamanı rezonansı yaxşılaşdırmaq məqsədilə.

    b) Konstruktiv təhlükəsizlik – daşıyıcı elementlərdə deformasiyalar baş verdikdə ilk zədələnəcək hissə saxsı qablar olurdu və bu, xəbərdarlıq siqnalı funksiyasını daşıyırdı.

Hər iki yanaşma bir-birini tamamlayır və müasir mühəndislikdəki təhlükəsizlik siqnallarına bənzər qabaqcıl düşüncə nümunəsi kimi qiymətləndirilə bilər.

**Su xətləri və davamlı memarlıq prinsipləri.** Araşdırma zamanı divarlarda qədim su boruları aşkarlanmışdır. Bu sistemlər "birləşmiş qablar prinsipi"nə əsaslanaraq təbii yollarla işləyirdi. Burada diqqətəlayiq məqamlar:

- Enerji sərfiyyatı olmadan suyun paylanması;
- Minimum materialla maksimum funksionallıq;
- Avtomatik və passiv texnologiyaların tətbiqi;
- Uzunömürlü infrastrukturun qurulması.

Bu həllər müasir memarlıqda "yaşıl inşaat", "passiv ev texnologiyaları" və "ağıllı resurs idarəetməsi" konsepsiyalarının qədim prototipi kimi qiymətləndirilə bilər.

**Elmi-tədqiqat və gələcək üçün çağırış.** Qədim abidələr yalnız estetik və tarixi deyil, həm də texnoloji baxımdan öyrənilməlidir. Zərgərpalan hamamı bu baxımdan mühüm nümunədir. Buradakı texniki həllər müasir memarlıq və mühəndislik üçün ilham mənbəyi ola bilər.

Buna görə də mütəxəssislərin, bərpaçıların və alimlərin bu strukturları yalnız bərpa məqsədilə deyil, həm də öyrənmək və model kimi tətbiq etmək üçün araşdırmaları olduqca vacibdir.

**Nəticə.** Zərgərpalan hamamı uzun illər ərzində ciddi zədələnmələrə məruz qalmış və istifadəyə yararsız vəziyyətə düşmüşdür, bu səbəbdən onun qorunması üçün təcili müdaxilə zəruri olmuşdur. İlkin konservasiya tədbirləri binanın dağılmasının qarşısını almış, qeyri-standart tikinti texnologiyası isə onun möhkəmliyinin əsrlərlə qorunmasına şərait yaratmışdır. Hamamın su və istilik sistemləri qədim mühəndislik biliklərinin yüksək səviyyəsini nümayiş etdirərək, müasir davamlı memarlıq prinsiplərinə uyğun gəlmişdir. Saxsı qabların konstruktiv və akustik məqsədlərlə istifadəsi, eləcə də su xətlərinin qənaətcil quruluşu bu abidəni texnoloji baxımdan da dəyərli etmişdir. Bütün bunlar göstərir ki, Zərgərpalan hamamının bərpası və öyrənilməsi həm Azərbaycan arxeologiyası, həm memarlıq irsi, həm də müasir mühəndislik elmi üçün mühüm əhəmiyyət daşıyır.

Göndərildi: 08.08.2025
Qəbul edildi: 22.08.2025
Təqdim etdi: Əfqan Quliyev
İstinad: Quliyev, Ə. (2025). Bərpa layihələrinin hazırlanması və uğurlu təcrübələr. F. Xəlilli (Hazırlayan). Mədəni İrs Beynəlxalq Ustad Məktəbi: Tədris vəsaiti. (s. 259-262). Bakı: AFPoliqrAF. https://doi.org/10.30546/978-9952.2025.1259

AZƏRBAYCAN RESPUBLİKASININ
QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINA
DÖVLƏT DƏSTƏYİ AGENTLİYİ

MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

# MƏDƏNİ İRS BEYNƏLXALQ USTAD MƏKTƏBİ

## TƏDRİS VƏSAİTİ


Hazırlayan:
Dr. Fariz XƏLİLLİ



BAKI - 2025